**Azər Əli oğlu QASIMOV**
*Azərbaycan İlahiyyat İnstitutu Dinin tarixi və fəlsəfəsi ixtisasının doktorantı*
E-mail: azikqasimli@mail.ru

# İBADİYYƏNİN HƏLLEDİCİ BƏZİ FİKİRLƏRİ

**Xülasə**

İslam düşüncə tarixində ilk meydana gələn məzhəb Xaricilikdir. Xaricilər vaxt keçdikcə fərqli qruplara bölünmüş və içlərindən yalnız İbadilər varlıqlarını günümüzə qədər davam etdirmişlər. Müasir dövrdə İbadi müəlliflər israrla Xarici olmadıqlarını iddia edirlər.

Əttafəyyişin həyatı, Himyanu’z-Zad əsərində ayələri təfsir tərzi, rəvayət və dirayət istiqaməti haqqında məlumat verildikdən sonra seçilmiş təməl bəzi əqidə mövzularını və bununla bağlı ayələri necə ələ alması digər məzhəblərin fikirlərilə müqayisəli şəkildə veriləcək. Seçilən mövzular üzərindən Əttafəyyişin təvillərinin Xarici şərhlər olub-olmadığını müəyyənləşdirməyə çalışacağıq. İbadilərin mötədil bir firqə olmaları iddiası əslində digər Xarici qruplara nisbətən belə deyilir. Onları sərt, qatı, dözümsüz göstərmək və dini mətnləri səthi oxuyan Əzariqə kimi Xarici qruplarla bir tutmaq əlbəttə yanlışdır. Ancaq bununla yanaşı onların Xaricilərdən tamamilə fərqli olduqlarını iddia etmək də çox çətindir. Aparılan oxumalarda xüsusilə iman-əməl, böyük günah, təkfir və səhabəyə yanaşma mövzularında onların Xarici zehniyyətdən qurtulmadıqları müşahidə edilmişdir.

**Açar sözlər:** Təfsir, Xaricilik, İbadilik, Məzhəbi Təfsir, Əttafəyyiş, Himyanu’z-Zad

**UOT:93**
**DOI:** https://doi.org/10.54414/KBMV8116

## Giriş

İslamın özünə aid inanc, ibadət, əxlaq, mədəniyyət təsəvvürünün müəyyənləşdirilməsi, qorunması və sonrakı nəsillərə ötürülməsilə yanaşı din mərkəzli düzgün təsnifi də böyük əhəmiyyət kəsb edir. Çünki, nəyin dindən sayılacağı vacib olduğu qədər nəyin dindən olmadığı da vacibdir. Bu mənada İslam düşüncə tarixində meydana gəlmiş məzhəblərin dəyərləndirilməsi, müxalif və müntəsiblərin iddialarının araşdırılması xüsusi əhəmiyyət daşıyır. Dövrümüzdə özlərini İslami kimliklərilə ifadə edənlərin yaşadığı çətinliklər, keçmişdə formalaşmış ictihada söykənən İslamla bağlı fikirlərin dəyərləndirilməsini də zəruri edir. Xüsusilə Xaricilərin başladığı təkfir əsaslı düşüncələr bu gün İslam cəmiyyətlərindəki bəzi radikal qruplar tərəfindən “tövhid” adı altında davam etdirilir və müsəlmanlara ciddi sıxıntılar yaşadır. Bu gün dünyada artmaqda olan islamofobiya yanaşmalarının yayılmasında, dünyada hakim olan medianın təsiri olmaqla yanaşı, mediaya mövzu olan “tövhid” adı altında təcrid edici və seçici təkfir anlayışının da təsiri olduqca böyükdür. Burada nəzərdə tutduğumuz xüsusiyyət könülləri fəth etməyə yönəlmiş bir İslam anlayışıdır.

Tarixi müddət ərzində təşəkkül tapan İslam düşüncə məktəbləri bir tərəfdən İslam kimlikli müstəqil bir düşüncənin təməl daşlarını yaradarkən digər tərəfdən də hər təşəkkül bəlli bəzi məsələlərlə eyniləşib məşhur olmuşdur və onunla birlikdə xatırlanır. Məsələn: Xaricilər radikal təkfir çıxışlarıyla, Mötəzilə ağılçılıq və Xəlqul-Quran məsələsilə, Mürciə iman-əməl yanaşmasıyla və Şiə imamət nəzəriyyəsilə eyniləşərək tanınır. Əlbəttə hər təşəkkülün öz daxili dinamikasında etdiyi müdafiə ilə kənardan dəyərləndirmələr fərqlidir. Amma bütünlüyü təşkil edən, çoxluğu əhatə edən, ifrat və təfrit hesab edilməyən mötədil bir düşüncə tərzi uc yanaşmalardan daha çox və daha uzun müddət davam etmişdir. Buna görə də kənarlaşdırılmayan, İslam cəmiyyətinin ehtiyaclarına cavab verən mötədil yanaşmalar ümmət içərisində həyat zəmini taparkən, kənarlaşdıran, təcrid edən yanaşmalar varlıqlarını davam

etdirə bilməmişlər. Düşüncələrin varlığıyla bu düşüncələrə sahib fərd və cəmiyyətlər yaşamlarını birlikdə davam etdirir. Yəni düşüncələrin varlığı və ya yoxluğu fərd yaxud da cəmiyyətin varlıq və yoxluğuna təsir göstərir. Düşüncələrdəki müasirlik fərd və cəmiyyəti inkişaf etmiş bir gələcəyə apardığı halda, düşüncələrdəki gerilik isə fərd və cəmiyyəti yox olmağa sürükləyir.

İslam cəmiyyətində təşəkkül tapan düşüncə tərzləri vaxt keçdikcə özlərinə xas üsullar inkişaf etdirmiş və qarşılaşdıqları problemləri bu üsullar çərçivəsində həll etməyə çalışmışlar. Problemlər və bunlara yönəlmiş həll yolları axtarışları, dinin təməl mənbələri olan Quran və hədis mətnlərinə göstərilən yanaşma tərzində də özünü göstərir. Zaman keçdikcə düşüncə məktəbi adlandırılan məzhəb və ya təşəkküllərin özlərinə xas bu yanaşma tərzlərinə uyğun təfsir, hədis, kəlam kimi sahələrdə əsərlər meydana gəlmişdir. Belə ki, eyni ayə və ya hədis mətnləri fərqli qrammatik təhlillərlə əks yanaşmalar yaratmışdır. Bu səbəblə məzhəblərin yaratdığı əsərlərin, ümmətin əksəriyyətini təşkil edən əsas hissənin (səvadi-əzəm) əsərləri və ya yanaşmalarıyla müqayisə edilərək oxunması, əldə edilən məlumatların birlikdə təhlil edilməsi xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə təşəkküllərin, dinin birinci təməl qaynağı olan Quran ayələrinə gətirdikləri təvillərin, şərh üçün əlverişli zəmində olub-olmamasının təsbit və təhlili İslam düşüncə mədəniyyətinin araşdırılıb dəyərləndirilməsində böyük bir əhəmiyyətə sahib olmuşdur. [1]

İslam tarixində təşəkkül tapan Xaricilik də digərlərinə nisbətən az da olsa intellektual cəhətdən fərqlənmişdir. Xariciliyin İslam düşüncə tarixinə təsiri-özünəməxsus ünsürləri özündə cəmləşdirmə kimi səbəblərlə-mübahisəyə açıq olmaqla yanaşı təsir-əks təsir mexanizmini hərəkətləndirmə yönündən zehni bir hərəkətlilik yaratdığı şübhəsizdir. Xaricilərin təkfirlə bağlı fikirləri eyni zamanda onlara müxalif yanaşmaların inkişafına da zəmin hazırlamışdır. Beləliklə, müsadəməi-əfkara səbəb olaraq həqiqətin zühuruna vəsilə olduqları ifadə edilir.

Dövrümüzdə İbadilərdən başqa Xarici məzhəbinin varlığından danışmaq çətindir ancaq Xarici bir zehniyyətdən danışmaq mümkündür. Çünki, zehniyyət tarixə nəzər saldıqda çox vaxt fərqli adlarla fərqli zaman və məkanlarda varlığını davam etdirmə imkanı əldə etmişdir. Bu gün İslam cəmiyyətinə faydadan çox zərər verən yersiz və zamansız radikal bəzi qruplaşmaların-adları fərqli olsa da-Xarici izlər daşıdıqlarını demək mümkündür. “İbadilər Xarici bir qrupdurmu?” sualına da bu araşdırmada cavab verməyə çalışmışıq.

Xarici topluluqlar arasında qatı olan və güzəştə getməyənlər tarix səhnəsindən silindiyi halda mötədil olan İbadilər varlıqlarını bu gün də davam etdirir və xüsusilə müasir İbadi müəllifləri Xarici olmadıqlarını iddia edirlər. İbadilərin mötədil bir firqə olduqları inkar olunmaz bir həqiqətdir. Lakin onlarla bağlı təşkil edilən oxumalar nəticəsində, “digər Xarici qruplara nisbətən” kimi bir şərh əlavə etmək vacibdir. Bu araşdırmada Quran ayələri çərçivəsində İslam düşüncə məktəblərinin yanaşmalarıyla müqayisəli şəkildə İbadi məzhəbini adətən yenidən canlandıran bir şəxsiyyətə sahib Məhəmməd bin Yusif Əttafeyyişin Himyanuz-Zad ila Daril-Məad adlı təfsiri üzərində müəllifin Quran ayələrini şərh edərkən Xarici təvillər edib-etmədiyi, ayələrə gətirdiyi yanaşmalarla hansı İslam düşüncə tərzinə yaxın olduğunu müəyyən etməyə çalışacağıq. [2]

**Əsas hissə**

Bu məqalədə İbadiyənin mənbələrdə qeyd olunmuş ən həlledici fikirlərindən bəhs etmişik. Araşdırma mövzusu olan Məhəmməd bin Yusif Əttafeyyiş və Himyanu’z-Zad adlı təfsirini tədqiq edərkən bununla bağlı məlumatlara rast gəlmək mümkündür. İbadilik geniş yayılmış, çoxsaylı tərəfdarları olan, haqqında çox müzakirə aparılan bir məzhəb deyil. Bu baxımdan Əttafeyyişin təfsiri və Xarici şərhlərindən əvvəl İbadiyənin həlledici bəzi fikirlərinin müxtəsər şəkildə qeyd edilməsi gələcəkdə üzərində işlənəcək mövzuların daha yaxşı tədqiqi üçün çox faydalıdır.

İbadilər özlərinin Xaricilərin içində dəyərləndirilməsinə qəti şəkildə etiraz edirdilər. Özləri haqqında məqalə tipli əsərlərdə

verilən məlumatların İbadi mənbələrinə müraciət edilmədən, müxaliflərin əsərlərindən götürüldüyünü və buna görə də haqlarında yanlış məlumatların yayıldığını bildirmişlər. Müasir dövrdə də İbadiyənin Xarici olmadığından bəhs edən kitab və risalələr yazılır. Onlar Xaricilər deyildikdə Əzariqənin başa düşülməsinin zəruriliyini ifadə edir, bəzən də əsərlərində “Həvaric” sözünü işlətdikdən sonra əslində Əzariqəni nəzərdə tutduqlarını bildirən bir üsuldan istifadə edirlər. Bu mənada özlərinin yanlış şəkildə təqdim edildiyini, Xaricilərdən uzaq olduqlarını tez-tez söyləmişlər. Bu məqalədə İbadi tarixində əhəmiyyətli bir yerə sahib olan və İbadiliyi Əlcəzairdə canlandıran din alimi kimi təqdim edilən Məhəmməd bin Yusif Əttafeyyişin təfsirində Xarici yanaşmaların təsirli olub-olmaması, hansı mövzularda Xaricilərlə eyni cür düşünməsi, hansı mövzularda onlardan fərqli fikirdə olması araşdırılmışdır. Buna görə də məqalənin bu hissəsində İbadiliyin fikirlərinə toxunmaq, həm Əttafeyyişin təfsirindəki fikirlərilə müqayisə etmək imkanı verir, həm də İbadilərin iddia etdikləri kimi Xaricilərdən ayrı bir qrup olub-olmamasının Əttafeyyiş və təfsiri çərçivəsində dəyərləndirilməsinə şərait yaradır. [1]

**Röyətullah** İslam məktəbləri arasında müzakirə olunan əsas məsələlərdən biri də röyətullah kimi ifadə edilən Allahın görülməsi məsələsidir. Məzhəblər bu mövzunu ya fərqli dəyərləndirmiş, ya da müxtəlif şəkildə şərh etmişlər. Bu mövzuda hər nə qədər Mötəzilə, Həvaric, Murciə və Zeydiyyə Allahın dünyada və axirətdə görülməyəcəyini iddia etsə də röyətullaha sistemli şəkildə müxalif fikir bildirənlərin də Mötəzilə olduğu qeyd edilir. Əhli-Sünnət isə Allahın dünyada deyil axirətdə görüləcəyini qəbul etmiş, bunun əqli cəhətdən caiz və vacib olduğunu ifadə etmiş və bu mövzuda Kitab və Sünətdən sübutlar gətirmişdir. İbadilər bu mövzuda röyətullahın dünyada da, axirətdə də mümkün olmayacağını qəbul etmişlər. Onlar sübut kimi Əl-Qiyamə surəsindəki “O gün bəzi üzlər aydındır, Rəblərinə baxarlar” ayələrinin lüğəvi və əqli şəkildə şərh edilməsinin vacib olduğunu ifadə etmişlər. Onların fikrincə burada gözlə görməkdən söhbət getmir. Ayədən çıxan nəticə hesabatdan sonra qulların cənnətə girmək üçün Rəblərinin rəhmətini gözləyib ümid etmələridir. “Gözlər Onu idrak edə bilməz fəqət O gözləri idrak edər” ayəsinin də bu fikri daha da möhkəmləndirdiyini iddia edirlər. [3]

**Mürtəkibi Kəbirə** Kəbirə, “k-b-r” kökündən törəmiş bir söz olub cinayətkar üçün əzabı tələb edən və ya zina, qətl, savaşdan qaçmaq kimi şəriətlə qadağan olunan çirkin əməlləri ifadə edən ya da özünün səbəb olduğu əzab vəd edilən böyük günahlar üçün istifadə edilən bir anlayışdır. Buna görə də “kəbirə” böyük günah, “mürtəkibi kəbirə” isə böyük günah işləyən, günahkar şəxs mənasındadır. Bu səbəblə “Dinən qadağan olunması mövzusunda konkret sübut olan və haqqında dünyada və axirətdə cəza nəzərdə tutulmuş davranışlar böyük günah sayılır.”

İbadilər kəbirə mövzusunda tamamilə Xaricilər kimi olmasa da onlara yaxın bir mövqedədirlər. Onların fikrincə kafir və mömin olmaqla iki qrup var. Bu iki sinif bilindikdən sonra şəxsin münafiq, asi, fasiq, zalım olması fərq etməz, bu şəkildə ölən hər kəs kafirdir. Ancaq küfr, küfri-nemət və küfri-şirk olmaqla iki qismə bölünür. Buna görə də bir müsəlman böyük günah işləyərsə artıq mömin deyil fəqət müvahhiddir və bu şəxs küfri-şirk deyil küfri-nemət içindədir. Bu səbəblə küfri-nemət içində olan şəxs Allahın vəhdaniyyəti, ayələri və peyğəmbərin risaləti kimi etiqad mövzularını qəbul edən, lakin əməl mövzusuna etinasız yanaşan bir müvahhiddir. Fəqət küfri-şirk və ya küfri-cuhud içində olan şəxs isə Allahın vəhdaniyyətini, ayələrini, peyğəmbərin risalətini qəbul etməyəndir. Küfri-nemət içində olan əgər tövbə etmədən ölərsə əbədi olaraq cəhənnəmdə qalacaqdır. Həmçinin bir şəxs böyük günahları inkar edər və yaxud hər hansısa bir günahı işləməkdə təkid edərsə o zaman müşrik olur və əbədi olaraq cəhənnəmdə qalır. [1]

Burada İbadilər müvahhidi xüsusilə dünyəvi hökm baxımından istifadə etmişlər. Buna görə də müvahhid şəxs kəbirə işləmiş olsa da ona müsəlman kimi davranırdılar. Misal üçün qanı və malı haramdır, zərər verilə bilməz, qadınları ilə evlənmək olar, kəsdikləri yeyilər və cənazə namazları qılınar.

**Xəlqul-Quran** İslam məktəblərinin mübahisə və müzakirə etdiyi mövzulardan biri də xəlqul-Quran məsələsidir. Anlayış Quranın yaradılmış olub-olmaması mübahisəsini ifadə edir. Məktəblər arasındakı mübahisə isə əsasən məxluq olub-olmaması mövzusundadır.

Mötəziləyə görə Quran Allahın sifətlərinin təcəllisidir, eşidilib başa düşülən bir kəlam olması baxımından insanlara aid sözlərdən fərqli deyildir, hər ikisi də hərflər və səslərdən ibarətdir. Allah yaratdığı hərf və səslərlə mütəkəllim olur və nəticədə Quran da məxluqdur. Əhli-Sünnət alimləri bu mövzuda ləfz ilə mənanı bir-birindən fərqləndirirlər. Bunun nəticəsində Quranın Allahın zatıyla qaim olan mənasının əzəli olduğunu və məxluq olmadığını, Quranı insanların idrak sferasına endirən ləfz, hərf kimi xüsusların isə məxluq olduğunu bildirmişlər.

İbadilər xəlqul-Quran məsələsində Mötəzilə ilə eyni yanaşmaya sahibdirlər. Bu mövzuda aralarında bir qarşılıqlı əlaqə olmasını qeyd etmək lazımdır. Onların fikrincə Quran məxluqdur, buna hərf, səs və məna da daxildir.

**Səhabeyi Təkfir** Lüğəvi baxımdan “örtmək, gizlətmək, nankorluq etmək” mənalarında işlənən, “küfr, küfran” kökündən törəmiş bir məsdər olan təkfir, “küfrə yönləndirmək, mömin kimi tanınan bir şəxs haqqında kafir hökmü vermək” mənasında istifadə edilir. Quran və hədislərdə isə “günahları örtmək və bağışlamaq” mənasında da işlənir.

Təkfir məsələsinin bir problem olaraq meydana çıxması haqqında dəqiq bir tarix demək mümkün olmasa da bu məsələnin səhabə dövrünün son vaxtlarında, xüsusilə Siffeyn döyüşünün hakimə təhkim olunmasını qəbul etməyib Hz. Əli tərəfindən ayrılan Xaricilərin Hz. Əli, Müaviyə və bunu təsdiqləyən kütləni təkfir etməsilə başladığını söyləmək mümkündür. Çünki, bundan əvvəl də kütləvi bir təkfir cəhdinə rast gəlinir. Buna görə də təkfirin fərqli bir formaya keçdiyi dövr etiqadi məzhəblərin təşəkkülündən sonradır.

Bu məsələ məzhəblərin təşəkkülündən sonra geniş yayılmışdır və başlanğıcda mürtəkibi kəbirənin kafir olub-olmaması istiqamətində irəliləsə də, daha sonra bəzi məzhəb nümayəndələrinin bir çox məsələdə müxaliflərini təkfir etməsinə çevrilmişdir. Ancaq Əhli-Sünnət alimləri təkfir mövzusunda həssaslıqla davranmış və işlədiyi günahı halal görmədiyi müddət ərzində əhli-qibləni təkfir etməməyi başlıca prinsip kimi qəbul etmişlər.

Burada mövzumuzla bağlı olan, İbadilərin səhabəni təkfir edib-etməməsi məsələsidir. Çünki, ilk Xaricilər Hz. Osmanla Hz. Əlini Əbu Musa əl-Əşari, Əmr ibn As, Müaviyə və səhabədən xüsusilə təhkimi qəbul edənləri təkfir etmişlər. İbadi mənbələrə diqqətlə nəzər salsaq görərik ki, hər nə qədər Əzariqə kimi olmasa belə onlar da başda sonuncu iki xəlifə olmaqla təhkim hadisəsinə razılıq verən səhabələrə qarşı qəbul edilməyəcək bir mövqedə olmuşlar. Həmçinin onların fikrincə fitnə-fəsadda iştirak edən səhabələrlə bağlı fəzilət mövzusunda olan rəvayətlərin əksəriyyəti uydurmadır.

Bu mövzularda öz kitablarında xüsusən Hz. Əbu Bəkir və Hz. Ömərin ədalət və gözəl idarəetməsindən bəhs etmiş, daha sonra Hz. Osmanın ilk altı il sələflərinin yolu ilə getdiyini lakin, sonradan doğru yoldan ayrıldığını və bu səbəblə də qətlinin və qanının qanuni və vacib olduğunu, bunu edənlərin Bədirdə müsəlmanlara kömək etmək qədər əhəmiyyətli bir iş gördüklərini düşünmüşlər. Eyni zamanda Hz. Əlinin də təhkimə qədər doğru yolda olduğunu ancaq təhkimi qəbul etməklə imamətinin qanuni olmadığını, özünü imamətdən endirdiyini və bu səbəblə də onunla döyüşməyin vacib olduğunu ifadə etmişlər. [2]

**Allahın Sifətləri** Mötəzilə və Əhli-Sünnət imamları Allaha aid edilən ancaq lüğəvi mənası ilə Onun məxluqa bənzədiyi təəssüratı yaradan sifətlərin tənzih edilərək şərh edilməsinin tərəfdarı olmuşlar. Mötəziləyə əsasən sifətlər mövzusunda ən başlıca ünsür tənzihdir. Bu səbəblə tövhidə zərər gəlməməsi üçün Allahın zatından başqa sifətlərə sahib olmasını qəbul etməmişlər. Əhli-Sünnət isə Allahın zatı ilə qaim sifətlərin varlığını qəbul edir.

İbadilər sifətlər mövzusunda Mötəziləylə eyni mövqedədir. Onların fikrincə Allah zatı ilə qaimdir, sifətlər də zatın eynisidir. Əgər sifətlər zatdan qeyri olsaydı onda bu vəziyyət tövhidlə ziddiyyət təşkil edərdi. Bu səbəblə də

sifətlərin zatdan qeyri, müstəqil olması caiz deyil.

**Şəfaət** Şəfaət axirətdə peyğəmbərlərin və özlərinə icazə verilən şəxslərin, möminlərin bağışlanması üçün Allah qatında ricasını ifadə edən bir anlayışdır. İslam alimləri Hz. Peyğəmbərin məhşər meydanında uzun müddət gözləmə sıxıntısının aradan qaldırılması və möminlərin cənnətdəki məqamlarının yüksəlməsi üçün Allah qatında şəfaət edəcəyi, kafirlər haqqında hər hansı bir şəfaətin olmayacağı mövzusunda ortaq fikirdədirlər. Mübahisə mövzusu, tövbə etmədən ölən kiçik və ya böyük günah işləmiş müsəlmanlara şəfaət edilib-edilməməsidir. Mötəziləyə əsasən kəbirə işləyib tövbə etmədən ölən şəxs fasiq olub şəfaətdən məhrum qalacaq. Sələf, Şiə və Əhli-Sünnətə əsasən isə böyük günah işləmiş və tövbə etmədən ölmüş şəxslər də şəfaətdən faydalanacaq. İbadilər şəfaət mövzusunda Mötəzilə ilə eyni yanaşmaya sahibdirlər. Onların fikrincə şəfaət ancaq möminlərə xas olacaq. Asi,fasiq və əhli kəbair üçün şəfaətdən söhbət gedə bilməz. Kəbair işləmiş və bu halda ölmüş şəxslər Rəsulullahın şəfaətindən kənarda qalacaq.

**İmamət Məsələsi** İmam, itaət edilən şəxs deməkdir. Hal-hazırda da istifadə olunan bu anlayış daha çox "namaz qıldıran" şəxsi ifadə edir. Ancaq burada nəzərdə tutulan ümmətin idarə edilməsini öhdəsinə götürmək, dini və dünyəvi işlərində onlara rəhbərlik etməkdir. İdarəetmə işi də imama tabe olma işinə bənzədilərək "imamət" anlayışı istifadə edilmişdir. Buna görə də imamət və ya xilafət ilə nəzərdə tutulan Hz. Peyğəmbərdən sonra dini qoruyacaq və dünyəvi işləri icra etmək mövzusunda peyğəmbərə xələf olacaq dövlət başçısıdır.

Mövzu ətrafında fərqli fikirlər səsləndirilsə də bu nəzəri müzakirədən əlavə hər kəsin qəbul etdiyi həqiqət, müsəlman cəmiyyəti üçün səhabənin ittifaqıyla imamətin zəruriliyinin vacib olmasıdır. Bunun zəruriliyini İslam tarixi boyu bir çox müəllif də ifadə etmiş və əsərlərində işləmişdir.

İbadilərin imamət-dövlət anlayışlarının yeganə əsası, hər hansı bir şərhə ehtiyac olmadan Qurani Kərimdir. İlk Xaricilərin münaqişə səbəbləri və demək olar ki, onlarla vəhdət təşkil edən bir şüar halına gələn "la hökmə illa lillah-hökm yalnız Allahındır" da bunu göstərir. Çünki, şəriətin hakim olacağı bir nizam ancaq Quranın düsturları sayəsində gerçəkləşə bilər. İbadilər dini və dünyəvi işlərinin icrası, dinin mühafizəsi üçün ümmət üzərində fərz səviyyəsində bir məcburi öhdəliklə imamətin zəruri olduğuna inanmışlar. Bu mənada Əhli-Sünnətə yaxın bir mövqedədirlər. Onların Hz. Əlidən ayrıldıqdan sonra Harurada toplanıb ilk növbədə özlərinə bir rəhbər seçib ona biət etmələri də imamət düşüncəsini gücləndirir. Ancaq Xaricilərin digər qollarından Nəcədatın imam təyin etməyin vacib olmadığını müdafiə etməsi də mənbələrdə qeyd olunmuşdur.

Əhli-Sünnət ümmətə dini və dünyəvi məsləhətlər üçün rəhbərlik edən imamı ifadə etməyə "xəlifə, xəlifətur-rasulilləh, əmirul-möminin" kimi adlardan istifadə etmişdir. İbadilər şərtlərinə uyğun olaraq qəbul etdikləri rəhbərlər üçün "imam, imamul-müslimin, talibul-haqq və imamul-ehkam" adlarını, bəyənmədikləri və ya tərəf olmadıqları rəhbərlər üçün isə "məlik" və ya "sultan" adlarını istifadə etmişlər. [1]

İbadiyə, imamətin şərtləri deyildikdə digər məzhəblərdən fərqli olaraq "imamın qüreyşdən olmasını" əsla qəbul etməz, imamətin şərtlərinə uyğun hər kəsin haqqı olduğunu qəbul edər. Onların fikrincə elm sahibi, ədalətlə hökm edəcək, Allahın kitabı və Rəsulullahın sünnətini iqamə edəcək hər yetkin müsəlman, nəslindən və irqindən asılı olmayaraq, müsəlmanların səsverməsi ilə seçilib imamət məqamına gələ bilər. Bunu iqamə edən bir kölə belə imam ola bilər. İmam, müsəlmanların seçimi ilə bu məqama gəlir. Seçimin şərti də biətdir. Bu mənada onları İslam tarixində dövlət başçılığının seçimlə olması fikrini cəsarət və israrla müdafiə etmiş ilk demokratlar hesab edənlər də var. Onların fikrincə əgər imam, imamətə uyğun hərəkət etməz, ədaləti iqamə etməyib Kitab və Sünnətin yolundan azarsa imamın vəzifədən azad edilməsi lazımdır.

İbadilərin fikrincə imam dövləti təmsil edir, ilk və ən vacib vəzifəsi Quran və Sünnətin rəhbərliyində hökmləri tətbiq edib ədaləti

təmin etməkdir. Ədalət prinsipi həm imam, həm də xalq üçün əvəzolunmaz yeganə ünsürdür. Bu vəziyyət əlbəttə gözəl bir xislət kimi görünməklə yanaşı, bu mövzuda çox sərt olmaları, dözümsüzlükləri də onlar üçün müsbət mənzərə yaratmır. Tətbiq üsullarına nəzər saldıqda görürük ki, ədalət mövzusunda müxalif fikirlərə heç bir yer və haqq verməmişlər. Ancaq ilk meydana çıxdığı dövrlərə nisbətən istər ifrat fikirli Xarici qollar arasında, istərsə də özlərindən olmayan müsəlmanlara münasibətləri mövzusunda İbadilərin təmkinli olmalarını da qeyd etmək lazımdır.

**Etiqad və İman** İlk Xaricilərə nəzər salsaq görərik ki, onlar iman-əməl mövzusunda ayrı düşünməmiş və ikisini bir bütün kimi qəbul etmiş, əməli imanın bir hissəsi kimi görmüşlər. İlk dövrlərdə dini və dünyəvi işlər bir-birindən ayrı deyil iç-içə olmuşdur. Bu vəziyyəti yəni əməli mövzuların imanın hissələri kimi qəbul edilməsi məsələsini İbadilər də davam etdirmişdir. Onlar üçün əsas olan Qurandır. Qurandakı əmirlər etiqadlarının əsasıdır. Bu əsasların ən başlıcası da tövhiddir. Çünki, tövhid gerçəkləşməsə mömininin əqidəsindən faydalanması mümkün deyil. Şəriətin tətbiqində Quranın əmirləri ilə yanaşı Hz. Peyğəmbərin Sünnətinə və Huləfai Rəşidinin təcrübələrinə də tabe olunur. Ancaq Huləfai Rəşidin içində Hz. Osmanın sadəcə ilk 6 ilini, Hz. Əlinin də təhkimdən əvvəlki dövrünü nəzərə alıb qəbul edirlər. Çünki, onların fikrincə Hz. Osmanın ilk altı illik və Hz. Əlinin də təhkimdən əvvəlki xilafəti qanunidir.

İbadilər etiqad əsasları baxımından uzun təfsir və şərhlərdən uzaq olmuş, Quran və Sünnəti əsas götürərək Allaha iman və Allahın sifətləri mövzusuna bağlanmaqla kifayətlənmişlər. Etiqadlarının ən əsas mövzusu imandır. Məsələn Cibril hadisəsində ayrı siniflər kimi ifadə edilən inanmaqla bağlı Allah, mələk, kitab kimi mülahizələrlə əməllə bağlı olan namaz, oruc, zəkat kimi mülahizələr ayrı-ayrı dəyərləndirilməmiş, həmişə imanın əsası kimi qeyd edilmişdir. Yenə onların fikrincə din, iman, İslam tək bir şeyin fərqli adlarıdır ki, o da Allaha itaət və İslam əsaslarının həyata keçirilməsidir. Əhli-Sünnət isə iman və əmələ xas olan əsasları fərqli dəyərləndirmiş və "əməllərə etinasızlıq iman dairəsindən çıxarmaz" qənaətinə gəlmiş, ya da daha məşhur olan bir ifadə ilə "əməl imanın bir hissəsi deyil" demişlər. İbadiyə isə bu mövzuda hamısını iman kimi düşündüyü üçün əmələ etinasızlığın imandan çıxaracağı qənaətinə gəlmişlər. Çünki, İslamın 4 rüknü var. Bunlar elm, əməl, niyyət və veradır. Bu dördü gerçəkləşmədən İslam səhih olmaz və söz, iqrarla əməlin arasını ayırmaq da caiz deyil. Buna görə də iman sadəcə təsdiq deyil, həm təsdiq və iqrar, həm də əməldir. Bu səbəblə də bütün əməllərin həyata keçirilməsi lazımdır. Fərz əməllər əksik olduqda iman gerçəkləşməmiş olur. Bu vəziyyətdə şəxs (küfri-nemət içində) müsəlman deyil asi bir müvahhiddir.

**Nəticə**

İslam dininin insan həyatına daxil olması fərd və cəmiyyətlərdə təpədən dırnağa qədər bir dəyişiklik yaratmışdır. Bu dəyişiklik özü ilə birlikdə yeni bir düşüncə sisteminin də yaranmasına zəmin hazırlamışdır. Çünki, İslam sadəcə problemlərin həllini tələb etməmiş eyni zamanda yeni yaranacaq problemlər üçün həll yolları tapılmasına da icazə vermişdir. Təməl əsaslarını rəhbər tutaraq insan problemlərinə həll yolları tapılmasına icazə verməsi özünəməxsus mədəniyyətin təşəkkülünü də sürətləndirmişdir. Fərqli zaman və məkanlardakı insanların adət, ənənə və mədəniyyətləri kimi problemləri də fərqli olmuşdur. İslam düşüncə tərzinin bütün bunlara təqdim etdiyi imkan və həll yolları bir tərəfdən böyük bir mədəniyyəti təşkil etməklə yanaşı digər tərəfdən fərqli bir çox yanaşmanı da özü ilə birlikdə gətirmişdir. Bu fərqli yanaşmalar bəzən bir ayənin təfsirində, bəzən bir hədisin təvilində və bəzən də bununla bağlı fərqli bir sahədə təzahür etmişdir. Vaxt keçdikcə fərqli yanaşmalar onları müdafiə edən müntəsiblər tərəfindən də rəvac taparaq məzhəb adlandırılmışdır.

İslam düşüncə dünyasındakı fərqli yanaşmalar əsas etibarı ilə bir düşüncə və mədəniyyət zənginliyi hesab edilmişdir. Hər düşüncə tərzinin öz fikir və yanaşmalarını "doğru" göstərməyə çalışması qəbul ediləcək bir haldır. Lakin, burada problem təşkil edən vəziyyət bəzən bəzi məzhəb müntəsiblərinin

müxalif başqa yanaşmalara qarşı göstərdikləri dözümsüzlük və ya "öz məzhəbini dinin önünə keçirmək" şəklində ifadə edilən davranışlarıdır. Xüsusilə bəzilərinin özünü İslami kimliklə önə çıxarmağa çalışmalarıyla yanaşı dinin insan iradəsinə ayırdığı sahədən kənara çıxaraq bir yanaşma göstərmələri də ayrı bir problemə zəmin hazırlamışdır. Çünki, bu sahədən kənara çıxmaq özü ilə birlikdə bu yanaşmaların doğruluğunu müzakirə ediləcək bir hala gətirmişdir. Əslində insanın yaratdığı məhsul hər zaman müzakirəyə açıqdır. Burada "mübahisəli məsələ" kimi adlandırdığımız xüsus, mövzunun dəyərləndirilməsi deyil məzhəblərin məzhəb ya da yeni bir din kimi müzakirəsidir. Çünki, dinin təməl əsasları mövzusunda bəlkə bir məzhəbdən deyil bir dindən danışmaq lazım gələcəkdir.

İslam adı altında təşəkkül tapan mədəniyyət yürüşü dayanmamış tam əksinə bir az da düşüncə dünyası daha da hərəkətli bir şəkildə sürətlənmişdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Əbül Abbas Şəmmaxi, "Kitabus-Siyər", (Benqazi: Darül-Medaril-İslami. 2009) 1/235
2. Əmir Xəlifə ən-Nami, "A Description of New İbadi Manuscripts from North Africa, Journal of emitic Studies" (Oxford. 1970) 15/1
3. Qurani-Kərim ("Şərq-Qərb" Nəşriyyat evi. )

**Азер Али оглы ГАСЫМОВ**
Докторант кафедры истории и философии религии
Азербайджанского Института Теологии
E-mail: azikqasimli@mail.ru

## НЕКОТОРЫЕ ВАЖНЫЕ ВЗГЛЯДЫ НА ИБАДИЮ

**Резюме**

Первой сектой, появившейся в истории исламской мысли, являются Хариджиты. Хариджиты с течением времени были разделены разные группы, и до наших дней дожили только Ибади. Они продолжили. Сегодня авторы Ибади настойчиво заявляют, что они не Хариджиты.

Жизнь Эттафейиша, его стиль интерпретации стихов в его произведении "Химьянуз-Зад", повествование и после предоставления информации о направлении мудрости, некоторых основных принципах веры и то, как он интерпретирует соответствующие стихи, сравнивается с взглядами других сект. Интерпретации Эттафейиша на выбранные темы являются Хариджитскими интерпретациями. Будет предпринята попытка определить, так ли это. Утверждение, что Ибади являются умеренной сектой. Фактически, это относительно других Хариджитских групп. Их суровый, жесткий, нетерпимый характер и религиозные с Хариджитскими группами, такими как Эзарика, которые отличились экзотерическим прочтением текстов. Конечно, хранить его неправильно. Однако они совершенно отличаются от Хариджитов. Утверждать, что они есть, крайне сложно. В чтениях, особенно веры-дела. Они отличаются от своего Хариджитского менталитета в вопросах большого греха, такфира и подхода к сподвижникам. Было замечно, что их не удалось спасти.

**Ключевые слова:** Ибади, Эттафейиш, Химьянуз-Зад, Хариджиты.

**Azer Ali GASIMOV**
Doctoral student of History and Philosophy of Religion,
Azerbaijan Institute of Theology
E-mail: azikqasimli@mail.ru

## SOME IMPORTANT IDEAS OF IBADI

**Summary**

The first sect that emerged in the history of Islam thought is the Kharidjite. The Kharidjites were divided into different subgroups by the time, and only the Ibadite sect of them has continued to the present day. Nowadays, the Ibadite scholars claim that they are not a subgroup of the Kharidjites.

In this study, Attafayyish's life, his exegesis method in Himyanu'z-Zad, its traditional and logical perspective will be studied and then some faith subjects and the related verses will be examined in a comparative way with the other exegeses. We will try to decide whether the interpretations of the related topics include the Kharidjite views or not. The claim which introduces the Ibadites as a moderate sect is based on comparison of the other Kharidjite subgroups. Of course it would not be just to claim that the Ibadites are as firm, violent and restless as the other Kharidjite subgroups such as Azariqa. But on the other hand, it is difficult to claim that they have not any relationship with the Kharidjites. In our study we have observed that the Ibadites' interpretation of some topics such as faith-act, grave sins, denouncing someone as infidel and views about companions resemble to the Kharidjites' comments.

**Keywords:** Exegesis, Kharidjism, Ibadism, Secterian Exegesis, Attafayyish, Isfayyish, Himyanu'z-Zad

**Daxil olub:** 02.07.2023